# Azərbaycan regionda sabitliyin və tərəqqinin təmin olunmasına mühüm töhfələr verir

**Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran əsas strateji vəzifələrdən biri dünya birliyinə inteqrasiya etmək, beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq və regionda sabitlik, əməkdaşlıq və inkişaf mərkəzinə çevrilmək olub. Qısa tarixi dövr ərzində ölkəmiz bu istiqamətdə mühüm nailiyyətlər əldə edib, çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu sayəsində həm region ölkələri, həm də qlobal güclərlə qarşılıqlı faydalı münasibətlər qurub. Bu proses xüsusilə son illərdə daha sistemli və məqsədyönlü xarakter alıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq arenada söz sahibi olan dövlətə çevrilib.**

Azərbaycanın dünya birliyinə inteqrasiyası, ilk növbədə, beynəlxalq təşkilatlarla fəal əməkdaşlıqdan keçir. Ölkəmiz BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər qurumlarla sıx əlaqələr quraraq qlobal problemlərin həllində aktiv mövqe nümayiş etdirir. Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik edib, pandemiya dövründə üzv dövlətlər arasında həmrəyliyin gücləndirilməsi üçün təşəbbüslərlə çıxış edib. Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasında pandemiyaya qarşı mübarizə ilə bağlı xüsusi sessiyanın keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olub. Bu addım ölkəmizin təkcə regional deyil, qlobal miqyasda da məsuliyyətli tərəfdaş kimi qəbul olunduğunu bir daha təsdiqləyibdir.

Region ölkələri ilə münasibətlərin inhibliyi etməsi Azərbaycanın ekoloji diplomatiya sahəsində artan rolunu nümayiş etdirir.

Humanitar və mədəni əməkdaşlıq da inteqrasiyanın mühüm istiqamətidir. Azərbaycan multikultural dəyərləri təşviq edən ölkə kimi tanınır və müxtəlif beynəlxalq forumlara ev sahibliyi edir. Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu kimi platformalar ölkəmizin sivilizasiyalararası körpü rolunu gücləndirir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə həyata keçirilən humanitar layihələr Azərbaycanın beynəlxalq imicini daha da möhkəmləndirir.

Bu gün Azərbaycan regionun lider dövlətlərindən biri kimi həm siyasi sabitlik, həm iqtisadi inkişaf, həm də diplomatik fəallıq baxımından fərqlənir. Dünya birliyinə inteqrasiya artıq sadə məqsəd deyil, reallıqdır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

tərəfdaşlıq haqqında sənədlərin imzalanması, qaz tədarükünün artırılması və alternativ enerji mənbələrinin inkişafı istiqamətində aparılan danışıqlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da gücləndirib. Xüsusilə Cənub Qaz Dəhlizinin genişləndirilməsi, yeni interkonnektor layihələrinin həyata keçirilməsi Azərbaycanın imkanlarının genişləndirilməsi də beynəlxalq inteqrasiyanın mühüm elementidir. Orta Dəhliz layihəsi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının inkişafı ölkəmizi Avrasiya məkanında əsas tranzit qovşaqlarından birinə çevirir. Zəngəzur dəhlizinin açılması perspektivi isə regionun iqtisadi xəritəsini dəyişə biləcək strateji layihə kimi qiy-

kişafı Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdəndir. Türkiyə ilə strateji müttəfiqlik əlaqələri Şuşa Bəyannaməsi ilə yeni mərhələyə qədəm qoyub, siyasi, hərbi, iqtisadi və enerji sahələrində əməkdaşlıq daha da dərinləşibdir. Azərbaycan-Türkiyə tandemi regionda sabitliyin və təhlükəsizliyin əsas dayaqlarından biri kimi çıxış edir. Gürcüstanla tərəfdaşlıq isə enerji və nəqliyyat layihələri çərçivəsində xüsusi əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və Orta Dəhliz kimi layihələr Azərbaycanın Avropa ilə əlaqələrini gücləndirib, ölkəmizi mühüm tranzit mərkəzinə çeviribdir. Prezident İlham Əliyevin Avropa İttifaqı ilə enerji dialoqunun genişləndirilməsi istiqamətində atdığı addımlar nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş statusunu daha da möhkəmləndiribdir.

Son illər Azərbaycanın beynəlxalq inteqrasiyasında yeni mərhələ kimi postmünaqişə dövrü xüsusi yer tutur. 2020-ci ildə Vətən müharibəsində qazanılan Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa edilib, regionda yeni reallıqlar formalaşıbdır. Prezident İlham Əliyev bu reallıqları beynəlxalq platformalarda ardıcıl şəkildə təqdim edərək Azərbaycanın sülh gündəliyinə sadiqliyini vurğulayıb. Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlar, sərhədlərin delimitasiyası prosesi və kommunikasiya xətlərinin açılması təşəbbüsləri regionda davamlı sabitliyin təmin edilməsinə yönəlib. Bu siyasət Azərbaycanın konstruktiv və məsuliyyətli dövlət kimi mövqeyini daha da gücləndirir.

Azərbaycanın iqtisadi inteqrasiyası da diqqətəlayiqdir. Ölkəmiz Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər maliyyə institutları ilə əməkdaşlıq edərək iqtisadi islahatları dərinləşdirir, investisiya mühitini yaxşılaşdırır. Son illərdə qeyri-neft sektorunun inkişafı, rəqəmsal iqtisadiyyatın genişlənməsi və "yaşıl enerji" layihələrinin reallaşdırılması beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində həyata keçirilir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası"nın yaradılması istiqamətində atılan addımlar Azərbaycanın qlobal iqlim gündəliyinə verdiyi töhfənin göstəricisidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin COP29 kimi nüfuzlu beynəlxalq tədbirə ev sa-



cə məqsəd deyil, reallıqdır. Prezident İlham Əliyevin praqmatik və milli maraqlara əsaslanan xarici siyasəti nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində müstəqil mövqeyə malik, etibarlı və təşəbbüskar tərəfdaş kimi qəbul olunur. Qarşıdakı illərdə də bu kursun davam etdirilməsi ölkəmizin qlobal miqyasda rolunun daha da artmasına, regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Azərbaycanın dünya birliyinə inteqrasiyası prosesində diqqət çəkən əsas məqamlardan biri balanslaşdırılmış və çoxvektorlu xarici siyasət xəttinin uğurla davam etdirilməsidir. Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi qarşıdurmaların artdığı, enerji və təhlükəsizlik məsələlərinin qlobal gündəmin əsas mövzularına çevrildiyi bir dövrdə Azərbaycan öz milli maraqlarını qorumaqla yanaşı, müxtəlif güc mərkəzləri arasında etibarlı tərəfdaş kimi çıxış etməyi bacarıb. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz həm Qərb dövlətləri, həm də Şərq ölkələri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurub. Bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, regionda sabitlik və təhlükəsizlik üçün də mühüm zəmin yaradıb.

Avropa İttifaqı ilə münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Enerji sahəsində strateji iqtisadi və siyasi əhəmiyyətini artırır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan etibarlı tərəfdaşdır və imzaladığı bütün müqavilələrə sadiq qalır. Bu prinsipial mövqe ölkəmizin beynəlxalq aləmdə etimad kapitalını möhkəmləndirir.

Türk dünyası ilə əməkdaşlıq da Azərbaycanın inteqrasiya siyasətinin mühüm istiqamətlərindəndir. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi, nəqliyyat və mədəni layihələrin həyata keçirilməsi regionda yeni geosiyasi platformanın formalaşmasına səbəb olub. Qarabağda aparılan bərpa və quruculuq işlərində qardaş ölkələrin iştirakı həmrəyliyin bariz nümunəsidir. Prezident İlham Əliyev türk dünyasının birliyinin gücləndirilməsini strateji məqsəd kimi müəyyənləşdirərək bu istiqamətdə konkret təşəbbüslərlə çıxış edir.

Eyni zamanda, Azərbaycan İslam dünyasında da fəal mövqeyə malikdir. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkəmiz İslam həmrəyliyinin möhkəmləndirilməsi, islamofobiya ilə mübarizə və humanitar problemlərin həlli istiqamətində təşəbbüslər irəli sürür. Bakıda keçirilən beynəlxalq konfranslar və sammitlər Azərbaycanın İslam aləmində nüfuzunun artmasına xidmət edir. Bu fəaliyyət ölkəmizin həm dini tolerantlıq, həm də multikulturalizm dəyərlərinə sadiqliyini nümayiş etdirir.

Azərbaycanın nəqliyyat-logistika immətləndirilir. Prezident İlham Əliyev bu layihəni təkcə Azərbaycan üçün deyil, bütün region üçün yeni əməkdaşlıq imkanları yaradan platforma kimi təqdim edir.

Postmünaqişə dövründə aparılan diplomatik fəaliyyət Azərbaycanın sülh təşəbbüslərinin mərkəzində dayanır. Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlar, beynəlxalq vasitəçilərlə keçirilən görüşlər və regionda dayanıqlı sülhün təmin olunması üçün irəli sürülən təkliflər Azərbaycanın konstruktiv mövqeyini göstərir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan revanşist siyasətin deyil, əməkdaşlıq və inkişafın tərəfdarıdır. Bu yanaşma beynəlxalq ictimaiyyət tərəfindən də müsbət qarşılanır.

İnformasiya diplomatiyası və beynəlxalq media ilə əməkdaşlıq da müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Qarabağda aparılan bərpa işlərinin təqdim olunması və regionda yaranmış yeni reallıqların izah edilməsi istiqamətində sistemli fəaliyyət həyata keçirilir. Prezident İlham Əliyevin nüfuzlu beynəlxalq media orqanlarına müsahibələri ölkəmizin mövqeyinin qlobal auditoriyaya çatdırılmasında mühüm rol oynayır.

Bütün bu proseslər fonunda Azərbaycanın daxili sabitliyi və iqtisadi dayanıqlığı da beynəlxalq inteqrasiyanı gücləndirən əsas amillərdəndir. Sosial-iqtisadi islahatlar, rəqəmsal transformasiya, innovasiya layihələri və sahibkarlığın inkişafı ölkəmizin rəqabət qabiliyyətini artırır. Xarici investisiyaların cəlb olunması və biznes mühitinin yaxşılaşdırılması beynəlxalq əməkdaşlığın genişlənməsinə şərait yaradır.

Beləliklə, Azərbaycanın dünya birliyinə inteqrasiyası çoxşaxəli və davamlı proses kimi inkişaf edir. Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara əsaslanan siyasəti nəticəsində ölkəmiz qlobal miqyasda etibarlı tərəfdaş, regionda isə təşəbbüskar və lider dövlət kimi mövqeyini möhkəmləndirir. Müasir çağırışlara adekvat cavab verən, sülh, əməkdaşlıq və inkişafı prioritet seçən Azərbaycan qarşıdakı illərdə də beynəlxalq münasibətlər sistemində rolunu daha da artıracaq, regionda sabitliyin və tərəqqinin təmin olunmasına mühüm töhfələr verəcəkdir.

*Yunis İSRƏFİLOV*